# "Bu, hələ başlanğıcdır"

## Rəcəb Tayyib Ərdoğan kəskin şəkildə bəyan etdi ki, Türkiyə lazım olan zamanda quru əməliyyatına başlayacaq

**"Türkiyə terror hücumlarında iştirak edənlərin hamısını dərhal araşdırmaq və məsuliyyətə cəlb etmək üçün bütün imkanlara malikdir". Bunu dünən Ankarada hakim Ədalət və İnkişaf Partiyasının parlament fraksiyasının iclasında çıxış edən Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan deyib.**



Dövlət başçısı İstanbulda 6 nəfərin ölümü və 80-dən çox adamın yaralanması ilə nəticələnən terror aktına, həmçinin Suriya ərazisindən ölkənin sərhədyanı rayonlarının atəşə tutulmasına və bunun iki dinc sakinin ölümünə səbəb olmasına diqqət çəkib.

Prezident qeyd edib ki, istintaq Türkiyə metropolitenindəki terror aktının təşkilatçılarını - Suriya ərazisində fəaliyyət göstərən PKK/YPG terrorçularını üzə çıxarıb.

Dövlət başçısı xatırladıb ki, son illər sərhədyanı Hatay, Qaziantep, Kilis, Şanlıurfa və Şırnak vilayətlərinin əraziləri 764 dəfə raket və minaatan hücumuna məruz qalıb, nəticədə 32 Türkiyə vətəndaşı həlak olub, 261 nəfər yaralanıb. "Türkiyə ərazisində terror fəaliyyəti imkanlarının zəifləməsi fonunda PKK yaraqlıları ölkəmizin sərhədyanı yaşayış məntəqələrini atəşə tutmağa başlayıblar. Əgər 2015-ci ildə Türkiyədə terrorçular 26 terror aktı təşkil edibsə, son illərdə bu rəqəm 2-3 olub", - deyə Ərdoğan bildirib.

Qardaş ölkənin Prezidentinin dediyinə görə, müəyyən qüvvələrin və dövlətlərin nəzarətində olan Suriya ərazilərindən Türkiyəyə qarşı təhlükənin yolverilməzliyi ilə bağlı verdiyi təminatlar sözdə qalır. Eyni zamanda Türkiyənin verdiyi hər bir bəyanat təkzibolunmaz reallıqlara söykənir və bunların aydın səbəbi var.

"Əgər sərhəd rayonlarının terrorçulardan təmizlənməsi ilə bağlı Suriya üzrə sazişlərin tərəfləri öhdəliklərini yerinə yetirməsələr, o zaman Türkiyə milli təhlükəsizliyə təhdidləri təkbaşına aradan qaldırmaq hüququnu özündə saxlayır", - deyə Türkiyə lideri vurğulayıb.

Prezident əmin edib ki, Türkiyə ölkə üçün ən uyğun vaxtda quruda antiterror əməliyyatını keçirəcək: "Hərbi Hava Qüvvələri, artilleriya və döyüş PUA-larının iştirakı ilə antiterror əməliyyatları hələ yalnız başlanğıcdır".

Prezident Suriya və İraqı Türkiyə ordusunun antiterror əməliyyatlarından narahat olmamağa çağırıb: "Ankara qonşu ölkələrin ərazi bütövlüyünə hörmət edir. Türkiyənin yeganə məqsədi dövlətin və əhalinin təhlükəsizliyidir".

Rəcəb Tayyib Ərdoğan Ankaraya təzyiq və hücumların əsl səbəbinin Türkiyənin regional lider kimi mövqelərinin güclənməsi olduğunu vurğulayıb. Bununla bağlı o, çıxışında deyib: "Avropa İttifaqına üzvlük danışıqlarında qərəzlə üzləşmişik. Eyni şey Türkiyənin F-35 proqramında iştirakı ilə böhran zamanı da baş verdi. Biz hava hücumundan müdafiə sistemlərinin Türkiyə ərazisindən çıxarılması zamanı, Kiprlə bağlı dialoq zamanı, miqrasiya və enerji sektorlarında da ikili standartların şahidi olduq".

Türkiyə Prezidenti Suriyada Tel Rıfat, Mənbic və Ayn əl-Ərəb şəhərlərində quru əməliyyatının keçiriləcəyinin anonsunu verib və həmin ərazilərin ölkə üçün lazım olan zamanda terrorçulardan təmizlənəcəyini bildirib: "Hava əməliyyatlarımızı fasiləsiz davam etdirərkən bizə uyğun zamanda qurudan da terrorçuların təpəsinə vuracağıq. Beton tunellərin məzarlığa çevriləcəyi gün yaxındadır. İraq və Suriya hökumətləri narahat olmasınlar, atacağımız addımlar bu ölkələrin ərazi bütövlüyünü təmin edəcək".

***R. HİLALOĞLU,***
***"Azərbaycan"***